**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaşlar Qurbanov Natiq Qurbaqulu oğlunun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 171 saylı, vətəndaş Ağayev Əhmədağa Miri oğlunun 26 dekabr 2009-cu il tarixli 123 saylı, İbrahimov Qədir Əlimərdan oğlunun və Bayramov Babayar Allahyar oğlunun 26 dekabr 2009-cu il tarixli 148 saylı, vətəndaş Bəybala Rüstəmovun 26 dekabr 2009-cu il tarixli 145 saylı, vətəndaş Mecidov Əbdülmecid Əbdüləziz oğlunun 26 dekabr 2009-cu il tarixli 139 saylı, vətəndaş Məhərrəmov Əzim Əziz oğlunun 26 dekabr 2009-cu il tarixli 121 saylı, vətəndaş Cəfərov Hümbət Bəhmən oğlunun 26 dekabr 2009-cu il tarixli 141 saylı, vətəndaş Cahangirov Qarakişi Sabzəli oğlunun 26 dekabr 2009-cu il tarixli 128 saylı, vətənsaş Abışov Rövşən Hidayət oğlunun 26 dekabr 2009-cu il tarixli 146 saylı, vətəndaş Sadıqov Əlisa Məmmədsadiq oğlunun 26 dekabr 2009-cu il tarixli 129 saylı, vətəndaş Həsənov Saydın Əli oğlunun və digərlərinin 26 dekabr 2009-cu 174 saylı və İmişli rayonu, Muradxanlı bələdiyyəsinin üzvlüyünə namizəd Nəcəfov Ramiz Əlif oğlunun 26 dekabr 2009-cu il tarixli 155 saylı müraciətlərinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 26 dekabr 2009-cu il tarixdə vətəndaşlar Qurbanov Natiq Qurbaqulu oğlu və digərləri, Ağayev Əhmədağa Miri oğlu, İbrahimov Qədir Əlimərdan oğlu, Bayramov Babayar Allahyar oğlu, Bəybala Rüstəmov, Mecidov Əbdülmecid Əbdüləziz oğlu, Məhərrəmov Əzim Əziz oğlu, Cəfərov Hümbət Bəhmən oğlu, vətəndaş Cahangirov Qarakişi Sabzəli oğlu, Abışov Rövşən Hidayət oğlu, Sadıqov Əlisa Məmmədsadiq oğlu və digərləri, Həsənov Saydın Əli oğlu və digərləri, eləcə də İmişli rayonu, Muradxanlı bələdiyyəsinin üzvlüyünə namizəd Nəcəfov Ramiz Əlif oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət etmişlər.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun üzvləri tərəfindən nəzərdən keçirərək, bu barədə müvafiq rəylər verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Daxil olmuş müraciətlər nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, müraciətlərdə tələb aydın göstərilməmişdir və bu səbəbdən də ekspert qrupunun üzvləri onların geri qaytarılması barədə rəylər vermişlər.

Belə ki, yuxarıda göstərilən Azərbaycan Respublikası Seçki Məcəlləsinin və yuxarıda göstərilən Təlimatın 7.1-ci bəndinə əsasən seçki komissiyaları tərəfindən şikayət qeydə alındıqdan və baxılması üçün ekspertə təqdim edildikdən sonra ekspert həmin müraciətin ilkin olaraq nəzərədən keçirir. Bu zaman ekspert müraciətin Seçki Məcəlləsi və Təlimatla müəyyən edilmiş qaydaların pozulması ilə daxil olduğunu aşkar etdikdə, bu barədə qrup koordinatorunu məlumatlandırmaqla, şikayətin onu təqdim edən şəxsə geri göndərilməsinə dair rəy verməlidir.

Müraciətlərə dair ümumi tələblər "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 2-ci bəndində müəyyən olunmuşdur. Həmin Təlimatın 2.1.9-cu bəndinə görə, müraciətdə şikayətçinin tələbi göstərilməlidir. Habelə Təlimatın 2.5-ci bəndinə əsasən əgər tələb yoxdursa və bu səbəbdən tələb aydın deyilsə, müraciət onu göndərən şəxsə geri qaytarılmalıdır. Ona görə də, müraciətdə tələb aydın olmadığından, müraciət mahiyyəti üzrə araşdırılmadan geri qaytarılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1.1-ci, 2.1.9-cu, 2.5-ci, 4.1.2-ci və 7.1-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. Vətəndaşlar Qurbanov Natiq Qurbaqulu oğlunun və digərlərinin 26 dekabr 2009-cuil tarixli 171 saylı, vətəndaş Ağayev Əhmədağa Miri oğlunun 26 dekabr 2009-cu il tarixli 123 saylı, İbrahimov Qədir Əlimərdan oğlunun və Bayramov Babayar Allahyar oğlunun 26 dekabr 2009-cu il tarixli 148 saylı, vətəndaş Bəybala Rüstəmovun 26 dekabr 2009-cu il tarixli 145 saylı, vətəndaş Mecidov

Əbdülmecid Əbdüləziz oğlunun 26 dekabr 2009-cu il tarixli 139 saylı, vətəndaş Məhərrəmov Əzim Əziz oğlunun 26 dekabr 2009-cu il tarixli 121 saylı, vətəndaş Cəfərov Hümbət Bəhmən oğlunun 26 dekabr 2009-cu il tarixli 141 saylı, vətəndaş Cahangirov Qarakişi Sabzəli oğlunun 26 dekabr 2009-cu il tarixli 128 saylı, vətənsaş Abışov Rövşən Hidayət oğlunun 26 dekabr 2009-cu il tarixli 146 saylı, vətəndaşlar Sadıqov Əlisa Məmmədsadiq oğlunun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 129 saylı, Həsənov Saydın Əli oğlunun və digərlərinin 26 dekabr 2009-cu tarixli 178 saylı və İmişli rayonu, Muradxanlı bələdiyyəsinin üzvlüyünə namizəd Nəcəfov Ramiz Əlif oğlunun 26 dekabr 2009-cu il tarixli 155 saylı müraciətlərində tələb aydın olmadığından, həmin müraciətlər ərizəçilərə geri göndərilsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Oktay Hümbətli |